# Marağı sevgiyə çevirmək missiyası

## Azərbaycan multikulturalizminin dünyada təbliği gerçəkləşən siyasi iradənin təcəssümüdür



Bu günlərdə Azərbaycanda daha bir beynəlxalq layihə yekunlaşdı. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Bakı Slavyan Universitetinin birgə təşkilatçılığı ilə 8-15 fevral tarixlərində baş tutan "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş" adlı Beynəlxalq Multikulturalizm qış məktəbi ərzində İsveçrə, Ukrayna, Türkiyə, Yaponiya, Almaniya, İtaliya, Portuqaliya, Polşa, Rusiya, Nigeriya, Çexiya, Gürcüstan, Belarus, Bolqarıstan, Litva və İndoneziyadan 42 xarici tələbə indiyədək sözlə tanış olduğu Azərbaycan multikulturalizminin əyani şahidi oldu. Onlara Azərbaycanın müxtəlif universitetlərindən 12 azərbaycanlı tələbə də qoşuldu.

Çağdaş dövrümüzdə Azərbaycan hökuməti sistemli şəkildə həyata keçirdiyi və dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirdiyi multikulturalizm siyasəti nəticəsində qazandığı uğurlarla dünyada multikultural dövlət imici əldə etmiş mərkəz kimi tanınır və bir çox dünya dövlətlərinə, o cümlədən Avropaya örnəkdir. Hazırda avropalılar əcnəbiləri, fərqli din və mədəniyyət daşıyıcılarını özlərinin yaşadıqları cəmiyyətə inteqrasiya etmək istəmirlər və buna görə də Avropanın əksər dövlətləri uzun illər apardığı multikulturalizm siyasətindən rəsmi şəkildə imtina edir. Bu gün dünyanın əksər ölkələrində, eləcə də Avropada multikulturalizm və tolerantlıq sadəcə hüquq müstəvisində mövcuddur. Azərbaycanda isə multikulturalizm qeyd edilən bu faktorla yanaşı, özündə çoxəsrlik mənəvi kultu qoruyub saxlayır, xalqın yaşam tərzi olmaqla yanaşı, dövlət siyasətinin aparıcı istiqaməti kimi önə çıxır.

### Azərbaycana olan marağı sevgiyə çevirmək: çətin, şərəfli və zövqverici missiya

Ölkəmiz indiyədək çoxsaylı beynəlxalq tədbirlərə ev sahibliyi edib. Qonağı adına layiq ağırlayıb-uğurlamaq xalqımızın canında-qanındadır, yeni qonaqpərvərlik tərəfimizdən təəccüblə qarşılanan məfhum deyil. Fəqət Azərbaycanın Beynəlxalq Multikulturalizm qış məktəbinə ev sahibliyi bu dəfə maraqlı bir cəhəti ilə fərqlənirdi. Bu dəfəki ağırlama-uğurlama mərasimində məqsəd təkcə ev sahibinin özünü qonaqlara sevdirməsi deyildi, burada ev sahibinin də qonaqlarını tanıması, sevməsi və eyni zamanda qonaqlarını bir-birinə sevdirməsi prioritet məsələ idi. Sözügedən bu maraqlı ideyanın müəllifi Kamal Abdullayev həm də Beynəlxalq Multikulturalizm qış məktəbi üçün maraqlı sloqan təklif etmişdi: "Azərbaycana olan marağı sevgiyə çevirmək və bu sevgini ürəklərdə yaşatmaq!" Marağa yönələn cığırın başlanğıc nöqtəsi tanışlıqdır. Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilər Şurasının sədri Kamal Abdullayevin təşəbbüsü ilə hazırda dünyanın 13 nüfuzlu universitetində tədris edilən "Azərbaycan multikulturalizmi" fənni vasitəsilə xaricdə ölkəmizin multikultural dəyərlər sistemi ilə tanışlıq qısa bir vaxtda Azərbaycana olan marağa çevrilib. Bu marağı sevgiyə çevirmək üçün xarici tələbələrin "Azərbaycan multikulturalizmi"nin tədrisi zamanı öyrəndiklərini öz gözləri ilə görmələri çox vacib idi. Qış məktəbi proqramında hər bir detal nəzərə alınaraq həm tədris boyu , həm də asudə vaxtın təşkili zamanı 16 ölkənin təmsilçilərinin Azərbaycanın tarixi, mədəniyyəti, multikultural dəyərlərinin tanıyıb sevmələri ilə yanaşı, eləcə də qonaqların öz ölkələrini eyniadlı istiqamətlər üzrə birbirilərinə tanıyıb sevdirmələri üçün dövlətimiz tərəfindən hər bir şərait yaradıldı. Azərbaycana olan marağı sevgiyə çevirmək çətin, gərgin əmək tələb edən, amma şərəfli və sonucda böyük zövq bəxş eləyən bir missiya idi. Qış məktəbinin yekun nəticələri, eləcə də xarici tələbə-müəllim kontingentinin Azərbaycan mətbuatında, həmçinin öz ölkələrinin mediasında yer alan unudulmaz, zəngin təəssüratları akademik Kamal Abdullayevin öncədən səsləndirdiyi "ömür boyu sürəcək dostluq və sevgi" tezisinin özünü doğrultduğunu təsdiqlədi...

### Qış məktəbinin iştirakçıları - ürəklərində Azərbaycan sevgisi yaşadan fəxri səfirlərimiz

Qış məktəbi ərzində tələbələrlə söhbətimiz zamanı xarici tələbələr burada multikulturalizmin, tolerantlığın ən müxtəlif aspektləri ilə tanış olduqlarını şövqlə qeyd edirdilər. Zəngin və unudulmaz təəssüratları bir yazıya sığdırmaq əlbəttə, mümkün deyil. Amma tələbələrin Azərbaycan multikulturalizmi ilə bağlı dedikləri ən yaddaqalan məqamlar yaddaşlara həkk olunub.

Gürcüstanlı tələbə Georgiy Saladze Azərbaycan multikulturalizmini çox maraqlı bir nüansla səciyyələndirdi: " Düşünürəm ki, keçən əsrin əvvəllərində Bakıda yaşayan milliyətcə gürcü, xristian Nino ilə azərbaycanlı müsəlman Əlinin böyük məhəbbəti çoxəsrlik Azərbaycan multikulturalizminin ən parlaq sübutudur".

Litvalı tələbə Kamilia Puncevice görə Azərbaycanda müxtəlif dinlərə, millətlərə məxsus insanların birgə yaşaması bütün dünya üçün nümunə olmalıdır.

Portuqaliyadan gəlmiş yəhudi Antonio Mendes Azərbaycanda gördüklərinin təsəvvüründəkiləri qat-qat üstələdiyini bildirib: "Qubadakı Qırmızı qəsəbədə olarkən çayın bir sahilində sinaqoqların, digər sahilində məscidlərin fəaliyyət göstərdiyinin şahidi oldum. Məncə, təkcə elə bu fakt Azərbaycanda unikal multikultural və tolerant dəyərlərin mövcudluğunun isbatıdır".

Rusiya kimi çoxmillətli və çoxkonfessiyalı bir ölkədən gələn tələbə Varvara Filipovanın "Əgər seçmək hüququm olsa, mən Azərbaycan multikulturalizmi modelinə səs verərdim. Çünki bu model həm işləkdir, həm də ümidvericidir" fikri isə bir çox mətləblərə aydınlıq gətirir.

"ADA" Universitetində təhsil alan nigeriyalı tələbə İbrahim Akinyeminin Azərbaycanda özünü öz ölkəsində olduğu kimi rahat hiss etdiyini deməsi, burada insanların çox istiqanlı olduğunu vurğulaması, Qubada, Xaçmazda, Qusarda yerli gənclərlə çay süfrəsi zamanı duyğularını Azərbaycan dilində entuziazmla paylaşmaq cəhdi də onun ölkəmizə olan sevgisinin təzahürü idi.

Azərbaycan multikulturalizminin daha bir maraqlı tərəfi dini, etnik, mədəni, irqi mənsubiyyəti ilə yanaşı, insanların məişətinə, seçdiyi yaşam tərzinə sayğıyla yanaşılmasıdır. Almaniyalı Tobias Fernandes Azərbaycandakı çox azad, tolerant atmosferdən və onun vegetarian yaşam tərzinə burada necə anlayışla yanaşıqlarından ağızdolusu bəhs etdi: "Azərbaycanda dil bilib-bilməməsindən asılı olmayaraq, hamı kömək etməyə, əl tutmağa hazırdır. Bu, elə multikulturalizmin ifadəsidir. Mən vegetarianam, bunu bilən qış məktəbinin təşkilatçıları ilk gündən mənim üçün ancaq tərəvəzlərdən ibarət məxsusi menyunun olmasına qərar verdilər. Buna görə daxilən sıxıntı keçirsəm də, bu məsələni ev sahibləri elə rahatlıqla, ürəkaçıqlığı ilə həll etdilər ki, sıxıntım qalmadı. Bu onun göstəricisidir ki, multikulturalizm buraya kənardan və yeni gələn dəyər deyil, çoxmədəniyyətlilik, başqasını da özündən biri kimi görmə ənənəsi burada əsrlərdir formalaşıb".

***Deyilənlərə və yazılanlara SÖZARDI: Bəzən özündə çox böyük həqiqəti ehtiva edən və bizə kənardan adi görünən situasiya bir işin mahiyyəti haqqında uzun-uzadı danışmaqdan daha effektli olur. Keçən il təşkil olunmuş Beynəlxalq Multikulturalizm yay məktəbində də təmsil olunan bolqarıstanlı tələbə Janet Nikolova qış məktəbinin iştirakçıları ilə Şəhidlər xiyabanını ziyarət edəndə öz təşəbbüsü ilə irəli çıxaraq Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəmanlarımız, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi fonunda ölkəmizin haqlı mövqeyi, xalqımızın erməni qəsbkarları tərəfindən üzləşdiyi vəhşilik və soyqırımları ilə bağlı xarici tələbələrə özü məlumat verdi... Janetin bu dəyərli jesti yay və qış məktəbləri sayəsində Azərbaycanın xaricdə artıq onlarla fəxri səfiri olduğunun və bundan sonra da olacağının parlaq sübutudur.***

**Sevinc Mürvətqızı ,**
Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin aparıcı məsləhətçisi